**AZƏRBAYCAN RESPUBLİKASI TƏHSİL NAZİRLİYİ**
**BAKI DÖVLƏT UNİVERSİTETİ**

*Əlyazması hüququnda*

**ZAUR İBRAHİMXƏLİL OĞLU MƏMMƏDOV**

# AZƏRBAYCAN RESPUBLİKASININ TÜRKİYƏ CÜMHURİYYƏTİ İLƏ MƏDƏNİ ƏLAQƏLƏRİ (2003-2010-CU ILLƏR)

İxtisas: 5503.02 – Vətən tarixi

Tarix üzrə fəlsəfə doktoru elmi dərəcəsi almaq üçün
təqdim edilmiş dissertasiyanın

**A V T O R E F E R A T I**

**BAKI – 2015**

Dissertasiya işi Lənkəran Dövlət Universitetinin "Tarix və fəlsəfə" kafedrasında yerinə yetirilmişdir.

**Elmi rəhbər:**
tarix üzrə elmlər doktoru, professor **M.C.QASIMLI**

**Rəsmi opponentlər:**
tarix üzrə elmlər doktoru, professor **N.C.MEHDİYEVA**

tarix üzrə elmlər doktoru, professor **N.A.AXUNDOV**

**Aparıcı müəssisə:** AMEA Tarix İnstitutunun "Azərbaycanın beynəlxalq əlaqələri tarixi" şöbəsi

Müdafiə Azərbaycan Respublikasının Prezidenti yanında Ali Attestasiya Komissiyasının 24 fevral 2015-ci il tarixli 52 saylı əmri ilə Bakı Dövlət Universiteninin nəzdində yaradılmış tarix üzrə elmlər doktoru və tarix üzrə fəlsəfə doktoru elmi dərəcəsi almaq üçün təqdim olunan dissertasiyaların müdafiəsini keçirən D.02.161 Dissertasiya Şurasının "____"_________ 2015-ci il tarixli iclasında, saat____$^{00}$ da olacaqdır.

**Ünvan:** Az-1148, Bakı şəhəri, Z. Xəlilov küç., 23.

Dissertasiya işi ilə Bakı Dövlət Universitetinin Elmi Kitabxanasında tanış olmaq olar.

Avtoreferat "____"_________ 2015-ci ildə göndərilmişdir.

**Dissertasiya Şurasının elmi katibi**
**t.ü.e.d., professor** **S.Y.SÜLEYMANOVA**

# I. DİSSERTASİYANIN ÜMUMİ SƏCİYYƏSİ

**Mövzunun aktuallığı.** Azərbaycan Respublikasının dövlət müstəqilliyinin bərpa edilməsi dünya dövlətləri ilə müxtəlif istiqamətlərdə əməkdaşlığının qurulması üçün əlverişli şərait yaratdı. Belə istiqamətlərdən biri də mədəniyyət sahəsində əməkdaşlıqdır**.** Məlum olduğu kimi, dövlət müstəqilliyini bərpa etdikdən sonra Azərbaycan və Türkiyə arasında əməkdaşlıq bütün sahələrdə olduğu kimi, mədəniyyət sahələrində də qurulmuşdur. Azərbaycan – Türkiyə mədəni əlaqələrinə böyük önəm verən Ümummilli lider Heydər Əliyev deyirdi: "Bizim tariximiz bir, dilimiz bir, dinimiz birdir... Biz bütün imkanlardan istifadə etməliyik ki, mədəni-humanitar və digər əlaqələr lazımı səviyyədə inkişaf etdirilsin... Türk xalqı ilə Azərbaycan xalqının tarixində, milli ənənələrində, mədəniyyətində çox oxşarlıq var... Ona görə də Türkiyə ilə Azərbaycan arasındakı əlaqələrin sıx olması təbii bir haldır"[1].

2003-cü ildən etibarən Azərbaycanın həyatında aparılan və dərinləşən islahatlar, mədəniyyət və təhsil sahələrində əməkdaşlıq fəaliyyətinin genişlənməsinə əlverişli imkan yaratmışdır. Məhz bu səbəbdən də tədqiqat işinin aktuallığının mərkəzində iki ölkənin mədəniyyət sahələrində əməkdaşlığının inkişafına xüsusi yanaşma tələbi durur. Belə ki, 1991-2003-cu illərdə Azərbaycan Respublikası ilə Türkiyə arasında imzalanmış müqavilələr öz qüvvəsində qalmaqla, sonrakı illərdə də iki qardaş ölkə arasında münasibətlərin yüksək səviyyədə qurulmasına şərait yaratmışdır.

İki ölkənin mədəni əməkdaşlığında 2003-cü ildən sonrakı dövr mühüm yer tutur. 2003-2010-cu illərdə Azərbaycan və Türkiyə arasında mədəni əməkdaşlıq genişlənmiş və yeni formalarda zənginləşmişdir. Problemin tədqiq edilməsinin aktuallığı onunla bağlıdır ki, aparılan araşdırma Azərbaycanın Türkiyə ilə mədəniyyət sahəsində əməkdaşlığının əsas forma və istiqamətlərini, onların məzmununu açıb göstərməyə, perspektivlərini müəyyənləşdirməyə imkan verir. İki ölkə arasında əlaqələrə həsr edilmiş tədqiqat əsərlərində bəzən tarixilik və müasirlik meyarları baxımından birtərəflik olmuş, mədəniyyət sahəsində əməkdaşlıq məsələləri müəyyən hallarda hərtərəfli və obyektiv mövqedən təqdim olunmamışdır. 2003-2010-cu illərdə iki ölkə arasında mədəni əməkdaşlığın bütün sahələrini araşdırmaq xüsusi əhəmiyyət kəsb edir. Bütün bunlarla yanaşı, qardaşlaşmış

---

[1] Heydər Əliyev və Şərq. 6 cilddə, III kitab: Türkiyə Cümhüriyyəti (Müəllif-tərtibcilər: Q.Allahverdiyev, V.Sultanzadə). Bakı, 2003, s. 125.

şəhərlərin və TÜRKSOY-un Azərbaycan və Türkiyə arasında mədəni əlaqələrdəki rolunun geniş tədqiqi də aktuallıq kəsb edir.

Müasir mərhələdə Azərbaycan və Türkiyə arasında mədəni əlaqələr inkişaf etməkdədir. 2007-ci il martın 9-da Heydər Əliyev adına Sarayda Dünya Azərbaycan və Türk diaspora təşkilatları rəhbərlərinin I forumunun açılışında etdiyi nitqində Prezident İlham Əliyev bəyan etdi: " Heç bir qüvvə Azərbaycan – Türkiyə əlaqələrini sarsıda bilməz..."[1]

Tədqiq olunan illərdə Azərbaycan və Türkiyə arasında mədəni əməkdaşlığın hüquqi əsasını beynəlxalq hüquq prinsiplərinə uyğun olaraq bağlanmış müqavilə, saziş və protokollar təşkil etmişdir. Bu isə mədəni əlaqələrin sistemli şəkildə həyata keçirilməsinə təsir göstərən əsas amillərdən olmuşdur.

Mövzunun aktuallığını şərtləndirən əsas amillərdən biri də problemə dair indiyə qədər elmi-siyasi ədəbiyyatda ayrıca tədqiqat əsərinin olmamasıdır. Ona görə də iki ölkə arasında mədəniyyət sahəsində əməkdaşlığın mövcud vəziyyətini və inkişaf perspektivlərini müəyyənləşdirən belə bir tədqiqat işinin aparılmasına ehtiyac yaranmışdır. Beləliklə, bütün bu amillər 2003-2010 cu illərdə Azərbaycan və Türkiyə arasında mədəniyyət sahəsində əməkdaşlıq məsələlərinin kompleks tədqiqini aktual edir.

Təqdim olunan dissertasiyada Azərbaycan Respublikası ilə Türkiyə Cümhuriyyəti arasında mədəni əlaqələr kompleks şəkildə araşdırılaraq tədqiq olunmuşdur. Azərbaycan Respublikasının Türkiyə Cümhuriyyəti ilə mədəni əlaqələrinin müqayisəli tarixi tədqiqi verilmişdir.

**Tədqiqatın xronoloji çərçivəsi** 2003-2010-cu illəri əhatə edir. Bu xronoloji çərçivənin seçilməsinin bir sıra səbəbləri vardır. Məlum olduğu kimi, İlham Əliyevin Azərbaycan Respublikası Prezidenti seçilməsindən sonra Türkiyə ilə münasibətlərdə yeni keyfiyyət mərhələsi başlanmış, beynəlxalq mədəni əlaqələrini daha geniş qurulmasına və genişləndirilməsinə xüsusi diqqət yetirilmişdir. Azərbaycan dövləti xarici siyasət məqsədlərinin reallaşdırılmasında mədəniyyət sahəsində əməkdaşlığa mühüm vasitələrdən biri kimi baxmışdır.

**Problemin öyrənilmə səviyyəsi.** Dissertasiya işi yazılarkən Azərbaycan, Türkiyə və digər ölkələrdə nəşr edilmiş əsərlər öyrənilmiş, sistemləşdirilmiş, təhlil edilmiş və elmi dövriyyəyə cəlb edilmişdir. Qeyd etmək lazımdır ki, dövlət müstəqilliyinin bərpasından ötən illər ərzində iki

---

[1] Dünya Azərbaycan və Türk diaspor təşkilatları rəhbərlərinin I forumu. "Ədəbiyyat qəzeti" qəz., Bakı, 2007, 16 mart, № 9-10.

ölkə arasında münasibətlərə həsr edilmiş bir sıra əsərlər yazılmışdır. Lakin 2003-2010-cu illərdə Azərbaycan – Türkiyə mədəni əməkdaşlığına dair tədqiqat işləri aparılmamışdır. Buna baxmayaraq, Azərbaycan – Türkiyə münasibətlərinin əvvəlki dövrlərinə həsr edilmiş əsərlərə müraciət edilmişdir.

Bu baxımdan M.Qasımovun (Qasımlı) Azərbaycan Respublikasının 1991-1995-ci illərdə beynəlxalq münasibətlər sistemində tutduğu yerə və xarici siyasətinə həsr olunmuş əsərlərində xarici siyasətin prinsipləri, məqsəd və vəzifələri, başlıca istiqamətləri araşdırılmışdır[1]. Bu əsərlərdə Azərbaycanın dünya birliyində tutduğu yer, xarici ölkələrlə ikitərəfli əlaqələrdə Türkiyənin rolu və s. məsələlər konkret faktlarla təhlil edilmişdir.

Azərbaycan Respublikasının xarici siyasət fəaliyyəti məsələləri Ə.Həsənovun əsərlərində tədqiqat obyektidir[2]. Həmin əsərlərdə Azərbaycan dövlətinin müstəqil xarici siyasətinin əsas məqsəd və prinsipləri araşdırılmış, xarici siyasət fəaliyyətinin əsas istiqamətləri və həyata keçirilmə formaları öz əksini tapmışdır.

S.Ruintənin monoqrafiyasında 1991-2001-ci illərdə Azərbaycan Respublikasının türk dövlətlərinin çoxtərəfli siyasi əlaqələri sistemindəki yerinə nəzər salınmış, beynəlxalq və məhəlli təşkilatlar çərçivəsində əməkdaşlıqdan və türk dövlət başçılarının zirvə toplantılarının ölkələrarası siyasi əlaqələrin inkişafındakı rolundan geniş bəhs edilmişdir[3]. Monoqrafiyada faktiki materialların öyrənilməsi və təhlili əsasında mövcud problem və çətinlikləri müəyyənləşdirilmiş, münasibətlərin daha da inkişaf etdirilməsi məqsədi ilə praktik tövsiyələr verilmişdir.

Ə.Əhmədovun monoqrafiyasında XX əsrin 90-cı illərində Azərbaycanın türk dövlətləri ilə münasibətləri tədqiq edilmişdir[4].

N.Mehdiyeva 1991-2005-ci illərdə türk dövlətləri arasında mədəni əlaqələri araşdırmışdır[1].

---

[1] Qasımov (Qasımlı) M. Azərbaycan beynəlxalq münasibətlər sistemində (1991-1995-ci illər). Bakı, 1996; yenə onun. Azərbaycanın xarici siyasəti (konsepsiya məsələləri). Bakı, 1997.

[2] Həsənov Ə. Azərbaycanın xarici siyasəti: Avropa dövlətləri və ABŞ (1991-1996). Bakı, 1998; yenə onun. Müasir beynəlxalq münasibətlər və Azərbaycanın xarici siyasəti. Bakı, 2005.

[3] Ruintən S. Azərbaycan türk dövlətləri ilə siyasi əlaqələr sistemində (XX əsrin 90-cı illəri). Bakı, 2005.

[4] Əhmədov Ə. Azərbaycan beynəlxalq münasibətlərdə (turkdilli dovlətlərlə əlaqələr. XX əsrin 90-cı illəri). Bakı, 2009.

N.Cəfərovun məqalələrində iki ölkə arasında mədəniyyət sahəsində əməkdaşlığın perspektivlərinə dair bir sıra məsələlərə toxunulmuşdur[2].

E.Hüseynovun dissertasiya işində Azərbaycan Respublikasının dövlət müstəqilliyinin bərpasından 1995-ci ilədək, yəni ilk Konstitusiyanın qəbul edilməsinədək olan illərdə Türkiyə ilə mövcud iqtisadi və mədəni əlaqələri tədqiq edilmişdir. Türkiyə ilə müxtəlif istiqamətli əməkdaşlıq və onun dinamik inkişaf prosesi araşdırmanın əsas ideyasını təşkil etmişdir[3]. Müəllif SSRİ dövründə yazılmış əsərlərə də nəzər yetirmiş, tarixi və mədəni prosesləri əks etdirən materiallara tənqidi yanaşmışdır.

C.X.Cahangirlinin monoqrafiyası müasir dövrdə Azərbaycan və Türkiyə arasındakı münasibətlərin tədqiqinə həsr olunmuşdur[4]. Əsərdə XX əsrin 90-cı illərində ölkələrarası əlaqələrə, əsasən geosiyasi, iqtisadi, hərbi, ideoloji aspektlərdən yanaşılsa da, mədəniyyət məsələlərinin təhlilinə də müəyyən qədər yer verilmişdir.

İ.Rəsulinin monoqrafiyası Azərbaycan – Türkiyə ədəbi-mədəni əlaqələrinə, xüsusilə XX əsr Azərbaycan dramaturgiyasında Türkiyə mövzusuna həsr edilmişdir[5]. Monoqrafiya, dövr baxımından tədqiqat işinə aid olmasa da, keçən əsrin 90-cı illərində Türkiyə mədəni həyatının təhlilinə və türk xalqlarının mədəni-tarixi birliyi ideyasına geniş yer verilmişdir.

İ.Kərimovun əsərində iki ölkə arasında teatr əlaqələrindən bəhs olunmuşdur[6]. Bu əsər dövr baxımından tədqiqat işinə aid olmasa da, Azərbaycan və Türkiyə arasında teatr sahəsində əməkdaşlığın öyrənilməsində xüsusi əhəmiyyətə malikdir.

Turizm sahəsində əməkdaşlıq məsələləri E.C.İsmayılova [7], F.İ.Qurbanovun [1], İ.Hüseynovun və N.Əfəndiyevanın [2], S.Eqanlı,

---

[1] Mehdiyeva N. Türk dövlətlərinin mədəni əlaqələri (1991-2005-ci illər) // ADPU-nun Xəbərləri. Bakı, 2014, № 1.

[2] Cəfərov N. Azərbaycan atatürkçülüyü, yaxud Heydər Əliyev Atatürk haqqında // Azərbaycanda Atatürk Mərkəzi. Bülleten. Bakı, 2003, s.18-32; yenə onun. Türk dünyasının birliyi strategiyası: Heydər Əliyevdən İlham Əliyevə // Dirçəliş – XXI əsr, 2004 (aprel-may), № 4-5 (74-75), s. 235-243.

[3] Hüseynov E. Azərbaycan Respublikasının Türkiyə ilə iqtisadi və mədəni əlaqələri (1991-1995-ci illər). Tar. elm. nam... dis. avtoref. Bakı, 2000.

[4] Cahangirli C.X. Müasir dövrdə Azərbaycan – Türkiyə münasibətləri. Bakı, 2006.

[5] Rəsuli İ. Dramaturgiyamızda Türkiyə. Bakı, 2001.

[6] Kərimov İ. Azərbaycan – Türkiyə teatr əlaqələri. Bakı, 2000.

[7] Исмаилова Э.Дж. Взаимоотношения Азербайджана и Турции в области спорта и туризма (1991-2008 гг.) // Bakı Universitetinin Xəbərləri. Humanitar elmlər seriyası, 2012, №4, s. 158-165.

E.Hacıyevin [3], B.C.Bilalovun [4] əsərlərində konkret faktlar öz əksini tapmışdır.

Habelə, E. İsmayılov [5], Ə.Muxtarova [6], R.Ulusel [7], İ.Vəliyev, K.Muxtarov[8] və digər tədqiqatçıların əsərlərində tədqiq olunan mövzuya dair qismən də olsa məlumatlar vardır.

Qeyd etmək lazımdır ki, Azərbaycan – Türkiyə əlaqələrinin müxtəlif aspektləri Türkiyədə də ciddi təhlil və tədqiq obyekti olmuşdur. Belə ki, A.A.Çamalanın əsəri dövr etibarı ilə tədqiq olunan problemə yaxın olsa da, burada təkcə təhsil sahəsində əlaqələr araşdırılmışdır[9]. Əsərdə texniki təhsil müəsisələri və hərbi təhsil sahəsində əməkdaşlığa demək olar ki, toxunulmamışdır.

İ.Bozyelin hələ Azərbaycanın dövlət müstəqilliyinin bərpa edilməsindən öncə yazdığı əsərində Azərbaycana səyahəti haqqında təəssüratlarını yazmış, müxtəlif bölgələrin mədəniyyət abidələri, tarixi yerləri və görkəmli elm, mədəniyyət və sənət adamları haqqında fikirlərini bölüşmüşdür[10].

Həmçinin Ali Arslan[11], Mehmet Saray[12], Tayyar Arının[13], Ulku İrfan [1] və digərlərinin tədqiqatlarında araşdırılan problemlərə dair bir sıra məsələlər öz əksini tapmışdır.

---

[1] Qurbanov F.İ. Azərbaycanda turizmin inkişaf problemləri. Bakı, 2007.
[2] Hüseynov İ., Əfəndiyeva N. Turizmin əsasları. Bakı, 2007.
[3] Eqanlı S., Hacıyev E. Turizm. Bakı, 2006.
[4] Bilalov B., Məmmədov C. Azərbaycanda gəlmə turizm və onun inkişaf yolları. Bakı, 2004; Bilalov B.Ə. Turizm fəaliyyətinin tənzimlənməsi. Bakı, 2006.
[5] İsmayılov E. Böyuk öndər. Bakı, 2004.
[6] Muxtarova Ə. Heydər Əliyev və türk dünyası // Tarix və onun problemləri, 2003, № 1, s.100-114.
[7] Ulusel S. Heydər Əliyev və Azərbaycan, Atatürk və türk dünyası Nizami Cəfərovun elmi araşdırmalarında. Bakı, 2004.
[8] Vəliyev İ., Muxtarov K. Heydər Əliyev və türk dünyası. Bakı, 2003.
[9] Camalan A.A. Azərbaycan Respublikası ilə Türkiyə Cümhuriyyəti arasında təhsil əlaqələri (1991-2010-cu illərdə). Tar. üzrə fəlsəfə dok... dis. avtoreferatı. Bakı, 2014.
[10] Bozyel İ. Azerbaycan diyarından seyahat notları. Ankara, 1985.
[11] Arslan A. Türk Cümhuriyetleri ve Türk Topluluklarından Türkiyeye gelen Öğrenciler (1992-1993). İstanbul, 1994.
[12] Saray M. Türkiye ile türk cümhuriyyetleri ve türk toplulukları arasında ilişkiler ve fealiyyetler. Ankara, 1993; yenə onun. Azerbaycan türkleri tarihi. İstanbul, 1993; yenə onun. Türk Dünyasında dil ve kültür birliği. Gaspıralı İsmail Beyden Atatürke. İstanbul, 1993.
[13] Tayyar A. Uluslararası İlişkiler ve Dış politika. 7 bsk., Bursa, 2008.

Beləliklə, tədqiq edilən problem ilə bu və ya digər dərəcədə bağlı olan əsərlərin təhlilindən məlum olur ki, Azərbaycan Respublikası və Türkiyə Cümhuriyyəti arasında mədəniyyət, elm və təhsil sahələrində əməkdaşlıq məsələləri indiyədək kompleks araşdırılmadığından tədqiqi elmi-nəzəri və praktik əhəmiyyət kəsb edir.

**Dissertasiya işinin mənbəşünaslıq bazası.** Dissertasiya işi zəngin mənbəşünaslıq bazası əsasında yazılmışdır. Azərbaycan Respublikanın ali qanunverici və icraedici orqanlarının qəbul etdiyi qanun, sərəncam və fərmanlar, iki dövlət arasında imzalanmış rəsmi sənədlər, müvafiq nazirlik və idarələrin arxiv materialları, dövlət rəhbərlərinin nitq, çıxış və müsahibələri dissertasiyanın mənbəşünaslıq bazasını təşkil etmişdir.

Dissertasiya işi yazılarkən Azərbaycan Respublikası Mədəniyyət və Turizm Nazirliyinin[2], Təhsil Nazirliyinin[3] arxiv materiallarından geniş istifadə edilmişdir. Mədəniyyət və Turizm Nazirliyi Beynəlxalq əlaqələr şöbəsinin Türkiyə və TÜRKSOY ilə əməkdaşlıq qovluqlarının və Təhsil Nazirliyinin Xarici əlaqələr şöbəsinin Türkiyə Cümhuriyyəti ilə əməkdaşlıq qovluğunun sənədləri bu baxımdan faydalı olmuşdur. Həmin arxivlərdə Azərbaycan Respublikası və Türkiyə Cümhuriyyəti arasında mədəniyyət və təhsil sahəsində əməkdaşlığa aid müxtəlif yazışma, saziş, müqavilə, sərəncam, qərar və bəyannamə, statistik materiallar və s. toplanmışdır.

Ulu öndər Heydər Əliyevin və Prezident İlham Əliyevin Türkiyəyə rəsmi səfərləri zamanı keçirdiyi danışıqları və nitqləri özündə əks etdirən "Müstəqilliyimiz əbədidir"[4], "Heydər Əliyev mədəni irsimizin keşiyində"[5], "İnkişaf məqsədimizdir"[6], "Prezident İlham Əliyev və Azərbaycan mədəniyyəti 2003-2008"[7], "Prezident İlham Əliyev və Azərbaycanda

---

[1] Ulku İ. Bağımsızlıkdan sonra Azerbaycan. İstanbul, 2000.

[2] Azərbaycan Respublikası Mədəniyyət Nazirliyinin cari arxivi, f. 13, siy. 7, iş 17-18; Azərbaycan Respublikası Mədəniyyət Nazirliyinin Beynəlxalq əlaqələr şöbəsinin Türkiyə Cümhuriyyəti ilə əməkdaşlıq üzrə qovluğu, 2003-2010; Azərbaycan Respublikası Mədəniyyət Nazirliyinin Beynəlxalq əlaqələr şöbəsinin TÜRKSOY ilə əməkdaşlıq üzrə qovluğu, 2003-2010.

[3] Azərbaycan Respublikası Təhsil Nazirliyinin Xarici əlaqələr şöbəsinin Türkiyə Cümhuriyyəti ilə əməkdaşlıq üzrə iş qovluğu, 2003-2010.

[4] Əliyev H.Ə. Müstəqilliyimiz əbədidir. I - II kitab. Bakı, 1997.

[5] Əliyev H.Ə. Mədəni irsimizin keşiyində. I - II kitab. Bakı, 2001.

[6] Əliyev İ. İnkişaf məqsədimizdir. I - IV kitablar. Bakı, 2009.

[7] Prezident İlham Əliyev və Azərbaycan mədəniyyəti. 2003-2008. I - II c. Bakı, 2008.

təhsilin inkişafı 2003-2008”[1] və b. çoxcildli əsərlər dissertasiya işinin yazılmasında mühüm rol oynamışdır. Azərbaycan Respublikası Xarici işlər Nazirliyinin nəşr etdiyi sənədlər məcmuəsi[2] də xüsusi əhəmiyyətə malikdir.

Qafqaz Universiteti tərəfindən nəşr edilmiş kitabda Azərbaycan – Türkiyə mədəni əlaqələrinin müvafiq dövrü xronoloji ardıcıllıqla təqdim edilmiş, mədəniyyət sahəsində əlaqələrin inkişafında Heydər Əliyevin rolu faktiki materiallar əsasında geniş şərh edilmişdir[3]. Altı cildlik kitabda Azərbaycan – Türkiyə mədəni əlaqələrinə dair rəsmi məlumatlar toplanmışdır[4].

Dissertasiya işinin yazılmasında əhəmiyyətli mənbələrdən biri də dövri mətbuat materialları olmuşdur. Bu baxımdan “Azərbaycan”, “Azərbaycan müəllimi”, “Respublika”, “Xalq qəzeti”, “Mədəniyyət”, “Ədəbiyyat”, “Ədalət”, “Kaspi” qəzetlərinin, “Dirçəliş - XXI əsr” jurnalının, “ATİB Bülleten” və s. materiallarından istifadə edilmişdir.

Eyni zamanda Türkiyə rəsmi orqanlarının və kütləvi informasiya vasitələrinin materiallarına da müraciət olunmuşdur.

**Dissertasiya işinin məqsəd və vəzifələri.** Tədqiqatın başlıca məqsədi mötəbər mənbələr və mövcud tarixşünaslıq bazası əsasında 2003-2010-cu illərdə Azərbaycan Respublikasının Türkiyə ilə mədəniyyət, elm və təhsil sahələrində əməkdaşlığını kompleks şəkildə araşdırmaqdır. Bu məqsədə nail olmaq üçün aşağıdakı konkret vəzifələrin yerinə yetirilməsi qarşıya qoyulmuşdur:

- mədəniyyət sahəsində əməkdaşlığın inkişaf tarixini, prinsip, forma və istiqamətlərini aşkara çıxarmaq və bu münasibətləri şərtləndirən amilləri öyrənmək;
- dövlətlərarası münasibətlərin inkişafında mədəni əlaqələrin əhəmiyyətini göstərmək;
- incəsənət sahəsində əməkdaşlığın əsas istiqamətləri və formalarını araşdırmaq;

---

[1]Prezident İlham Əliyev və Azərbaycanda təhsilin inkişafı. 2003-2008. Bakı, 2008.
[2]Azərbaycanın xarici siyasəti: sənədlər məcmuəsi. 2003-2009. Bakı, 2009-2010.
[3] Azərbaycan – Türkiyə əlaqələri və Heydər Əliyev. I kitab. 1991-2001. Bakı, 2002.
[4]Heydər Əliyev və Şərq. 6 cilddə, I kit., (Muəllif-tərtibcilər: Q.Allahverdiyev, V.Sultanzadə). Bakı, 2002; III kit., Türkiyə Cümhüriyyəti (Muəllif-tərtibcilər: Q.Allahverdiyev, V.Sultanzadə). Bakı, 2003.

- mədəniyyət günləri və ədəbi əlaqələr sahələrində əməkdaşlığı tədqiq etmək;

- turizm sahəsində əməkdaşlığın həyata keçirilməsinin tarixini təhlil etmək;

- mədəniyyət sahəsində əməkdaşlığın inkişafında qardaşlaşmış şəhərlərin rolunu və əhəmiyyətini təhlil etmək;

- iki ölkə arasında mədəni əlaqələrin inkişafında TÜRKSOY-un rolunu aydınlaşdırmaq;

- iki ölkə arasında orta və ali təhsil, elm sahəsində əməkdaşlığı, onun formalarını araşdırmaq;

- mədəniyyət, elm və təhsil sahələrində əlaqələri daha da inkişaf etdirmək üçün praktik tövsiyələr irəli sürmək.

**Tədqiqat işinin metodoloji əsası**nı tarix elmində qəbul olunmuş ümumi prinsiplər – tarixilik, şərh, tənqidi və müqayisəli təhlil, ümumiləşdirilmələr təşkil edir. Dissertasiya işində bir sıra tarixi baxışlar, mövqelər və yanaşmalar dövrün beynəlxalq münasibətlər sistemi kontekstində nəzərdən keçirilmişdir. Tarixi şərh və təhlillər ümumiləşdirilmiş nəticələrlə yekunlaşdırılmışdır.

**Tədqiqatın elmi yeniliyi.** Tədqiqatın elmi yeniliyi hər şeydən əvvəl, onunla şərtlənir ki, 2003-2010-cu illərdə Azərbaycan Respublikası və Türkiyə Cümhuriyyəti arasında mədəniyyət sahələrində əməkdaşlığa dair məsələlər tarixşünaslıqda indiyədək xüsusi tədqiqat obyekti olmamışdır. Dissertasiya işinin yeniliyi konkret olaraq aşağıdakılardan ibarətdir:

- mövzuya dair fakt və arxiv sənədlərinin böyük əksəriyyəti elmi dövriyyəyə ilk dəfə olaraq cəlb edilmişdir;

- dövlət müstəqilliyinin bərpasından ötən illərdə Azərbaycan Respublikası və Türkiyə Cümhuriyyəti arasında mədəniyyət sahəsində əməkdaşlıq məsələləri müqayisəli təhlil və şərh edilmişdir;

- iki ölkə arasında mədəniyyət sahəsində əməkdaşlığın hüquq - müqavilə bazası öyrənilmişdir;

- mədəniyyət sahəsində əməkdaşlığının əsas istiqamətləri və inkişafı tədqiq edilmişdir;

- ilk dəfə mədəniyyət günləri sahəsində əməkdaşlığın özünəməxsusluğu tədqiq edilmişdir;

- ilk dəfə mədəniyyət sahəsində əməkdaşlıqda TÜRKSOY-un rolu təhlil edilmişdir;

**Tədqiqatın obyekti.** 2003-2010-cu illərdə Azərbaycan Respublikası və Türkiyə Cümhuriyyəti arasında mədəniyyət, elm və təhsil sahələrində əməkdaşlıqdır.

**Tədqiqatın predmeti.** Azərbaycan və Türkiyə arasında mədəni əlaqələrin inkişaf tarixi, hüquq - müqavilə bazası, mədəniyyət sahəsində əməkdaşlığın əsas istiqamətləri, inkişafı və formaları, mədəniyyət günləri, ədəbi əlaqələr, turizm sahəsində əməkdaşlıq, qardaşlaşmış şəhərlərin yeri, TÜRKSOY-un rolu, orta, ali təhsil və elmi müəssisələr arasında əməkdaşlıq, tələbə mübadiləsidir.

**Tədqiqatın nəzəri və praktik əhəmiyyəti.** Dissertasiya işinin nəzəri və praktiki əhəmiyyəti vardır. Dissertasiyanın əsas müddəalarından və elmi nəticələrindən istifadə edilə bilər:

- Azərbaycan tarixinə və Ümumi tarixə dair dərslik, dərs vəsaitləri və ümumiləşdirilmiş əsərlərin hazırlanmasında;
- universitetlərin müvafiq fakültələrində Azərbaycan Respublikası və Türkiyə Cümhuriyyəti arasında mədəniyyət, incəsənət, turizm, elm, təhsil və s. sahələrdə əməkdaşlıq mövzularında ixtisas kurslarının, mühazirələrin oxunmasında və seminar məşğələlərinin aparılmasında;
- Azərbaycan tarixinə dair gələcək tədqiqatlarda və XXI əsrin əvvəllərində Azərbaycan Respublikasının beynəlxalq mədəni əməkdaşlıq məsələləri tarixinin tədqiq olunmasında;
- Xarici İşlər Nazirliyi, Mədəniyyət və Turizm Nazirliyi, Təhsil Nazirliyinin və iki ölkə arasında müvafiq sahələrdə əməkdaşlığı həyata keçirən digər müəssisə, idarə - təşkilatlar və birliklərin fəaliyyətində.

**Dissertasiyanın aprobasiyası.** Tədqiqat işinin məzmunu və əsas ideyaları dissertantın Azərbaycanda və xarici ölkələrdə çap etdirdiyi məqalə və tezislərdə öz əksini tapmışdır. Problemlə bağlı müəllif ölkə və beynəlxalq səviyyəli konfranslarda məruzələrlə çıxış etmişdir.

**Dissertasiyanın strukturu.** Dissertasiya işi giriş, yarımfəsillərə bölünmüş üç fəsil, nəticə və istifadə edilmiş ədəbiyyatdan ibarətdir.

## II. DİSSERTASİYANIN QISA MƏZMUNU

**Girişdə** mövzunun aktuallığı əsaslandırılmış, öyrənilmə səviyyəsi, mənbəşünaslıq bazası, dissertasiyanın məqsəd və vəzifələri müəyyən edilmiş, metodoloji əsası, obyekti, predmeti, xronoloji çərçivəsi, elmi yeniliyi, nəzəri və praktiki əhəmiyyəti göstərilmişdir.

"**Azərbaycan ilə Türkiyə arasında mədəni əlaqələrin inkişaf tarixi və hüquqi-siyasi əsasları**" adlanan birinci fəsil iki paraqrafdan ibarətdir. Birinci paraqrafda iki ölkə arasında mədəniyyət sahəsində əməkdaşlığın **inkişaf tarixinə** nəzər yetirilmişdir. Məlum olduğu kimi, dövlətlərin xarici siyasi fəaliyyətləri başlıca olaraq, tərəflərin mənfəətlərinə uyğun qurulur.

Ancaq dövlətin xarici siyasi fəaliyyəti ilə onun vətəndaşlarının və müvafiq ölkə vətəndaşlarının etnik mənsubiyyəti məsələsi əməkdaşlığa bu və ya başqa dərəcədə təsir edir. Xalqın soykökü, xarakteri, xarici münasibətlərinin tarixi təcrübəsi onun qurduğu dövlətin münasibətlərinə və inkişafına bu və ya başqa şəkildə təsir göstərir. Yanlış olaraq bəzən dövlətlərarası münasibətlərin tamamən milli-etnik amillər əsasında qurulduğu iddia edilir. Etnik mənsubiyyət dövlətlərarası münasibətlərin inkişafında başlıca şərt olmasa da, şübhəsiz, təsirli amillərdən biridir. Bu, özünü xüsusilə, Azərbaycan – Türkiyə mədəniyyət sahəsində əlaqələrində aşkar şəkildə büruzə verir. Tarixən eyni milli-mənəvi, dini köklərə bağlı olan Azərbaycan ilə Türkiyə xalqları arasında mədəniyyət sahəsində əməkdaşlığın kökü uzaqlara gedir.

Azərbaycan xalqının Ümummilli lideri Heydər Əliyev 1993-cü ildə yenidən hakimiyyətə qayıtdıqdan sonra Azərbaycanın beynəlxalq aləmlə əməkdaşlığında, regional təhlükəsizliyin qorunmasında və ümumiyyətlə, mədəniyyət sahəsində maraqlarının reallaşmasında Türkiyə ilə hərtərəfli əməkdaşlığın genişlənməsinə xüsusi əhəmiyyət verdi. Bu istiqamətdəki əməkdaşlığın yüksələn xətt üzrə inkişafını təmin etdi.

Tədqiqatdan aydın olur ki, Azərbaycan tərəfi Türkiyə ilə əməkdaşlığı daim diqqətdə saxlamışdır. Belə ki, Azərbaycan Respublikasının Baş Naziri İlham Əliyev 2003-cü il oktyabrın 16-da Türkiyənin ölkəmizdəki fövqəladə və səlahiyyətli səfiri Əhməd Ünal Çeviközü qəbul edərkən demişdir: "Türkiyə ilə Azərbaycan arasında dostluq və qardaşlıq münasibətləri çox yüksək səviyyədədir. Son on il ərzində ölkəmizdə Heydər Əliyev tərəfindən bu istiqamətdə aparılan siyasət öz müsbət nəticələrini verir. Mən çox şadam ki, həm Türkiyənin, həm də Azərbaycanın ictimai həyatında iki ölkənin qarşılıqlı münasibətləri öncül xarakter almışdır. Mən bundan sonrakı vəzifəmdə də çalışacağam ki, bu münasibətlər daha da genişlənsin, iki qardaş ölkə bir-birinə daha da yaxın olsun"[1].

İlham Əliyev Azərbaycan Respublikası Prezidenti seçildikdən sonra Türkiyə Cümhuriyyəti ilə mədəniyyət, təhsil, elm və təhsil sahəsində yeni bir səhifə açıldı. Prezident İlham Əliyev 2004-cü il aprel ayında Türkiyədə rəsmi səfərdə olan zaman iki ölkə arasında digər sahələrdə olduğu kimi, mədəniyyət sahəsində də qarşılıqlı mübadilə məsələləri müzakirə edildi. Tərəflər göstərilən sahədə əməkdaşlığın dərinləşməsinin vacibliyini bildirdilər.

---

[1] Azərbaycanın xarici siyasəti: sənədlər məcmuəsi. 2003. I hissə. Bakı, 2010, s. 453-454.

Tədqiqatdan aydın olur ki, mədəniyyət, təhsil və elm sahələrində əməkdaşlıq inkişaf etməkdədir. Bu əməkdaşlıq, qarşısında heç kəsin dayana bilməyəcəyi bir axına çevrilmişdir. Belə ki, mədəniyyət ayrıca bir amil olmaqla yanaşı, həm də iqtisadi, siyasi, hərbi və buna oxşar digər siyasətlərin birləşməsinə təsir edən faktorlardan biridir.

İkinci paraqrafda mədəniyyət sahəsində əməkdaşlığın **hüquqi-siyasi əsasları** geniş şəkildə təhlil edilmişdir. İlk növbədə Türkiyə ilə mədəniyyət sahəsində əməkdaşlığı daha dərindən araşdırmaq və inkişaf dinamikasını izləmək üçün 1991-2002-ci illərə qısa tarixi ekskursiya edilmişdir. Vurğulanmışdır ki, Azərbaycan Respublikası Xalq Təhsili Nazirliyi ilə Türkiyə Cümhuriyyəti Milli Eğitim Bakanlığı arasında 1992-ci ildə imzalanmış təhsil sahəsində əməkdaşlıq müqaviləsi[1] Azərbaycan – Türkiyə təhsil sahəsində əməkdaşlığı üçün yeni imkanlar açdı. 18 maddəlik müqavilə Azərbaycan və Türkiyə arasında təlim-tərbiyə sahəsində əlaqələrin inkişafına nail olmaq üçün böyük göstəricidir.

Məlum olduğu kimi, 1993-cü ildə Heydər Əliyev Azərbaycan Respublikasının Prezidenti seçilən kimi təhsilə xüsusi diqqət verərək verərək, bu istiqamətdə ciddi addımlar atdı. 1994-cü ilin fevralında Türkiyə Respublikası ilə Azərbaycan Respublikası arasında elm, texnika, sosial, mədəni və iqtisadi sahələrdə əməkdaşlıq müqaviləsi, 1997-ci ilin martında Azərbaycan Respublikasının Təhsil Nazirliyi ilə Türkiyə Respublikası Milli Təhsil Nazirliyi arasında təhsil və elm sahələrində əməkdaşlıq imzalanmışdır[2]. Azərbaycan və Türkiyə arasında mədəniyyət sahəsində etibarlı və möhkəm təməl üzərində qurulmuş əlaqələr 2003-cü ildən sonra da uğurlu inkişaf etdirilmişdir. Tədqiq olunan illərdə Azərbaycan tərəfi Türkiyə ilə əməkdaşlığı daim diqqətdə saxlamışdır. Hər şeydən əvvəl, Azərbaycan Respublikasının Baş naziri İlham Əliyev Türkiyə Respublikasının Baş naziri Rəcəb Tayyib Ərdoğanın dəvəti ilə 2003-cü il sentyabrın 8-də bu ölkədə işgüzar səfərdə olarkən və Prezident kimi 2004-cü il aprel ayında Türkiyəyə rəsmi səfəri zamanı verdiyi bəyanatında iki ölkə arasında münasibətlərə toxunaraq qeyd etmişdir ki, ölkələrimiz arasında mövcud olan dostluq, qardaşlıq münasibətləri günü-gündən güclənir. Azərbaycan müstəqilliyini əldə etdikdən sonra Türkiyə onu

---

[1] Azərbaycan Respublikası Təhsil Nazirliyinin Xarici əlaqələr şöbəsinin cari arxivi. Türkiyə Cümhuriyyəti ilə əməkdaşlıq üzrə iş qovluğu, 1991-2001.

[2] Azərbaycan – Türkiyə əlaqələri bütün sahələrdə və səviyyələrdə qardaşlıq, dostluq üzərində qurulmuşdur // Dircəliş - XXI əsr. Xüsusi buraxılış, 2005, s. 51-58.

tanıyan ilk ölkə olmuşdur. O illərdən başlayaraq, bu günə qədər və xüsusən, son 10 il ərzində ölkələrimiz arasında olan münasibətlər inkişaf etmiş, güclənmişdir. Bütün sahələrdə, siyasi, iqtisadi, mədəni sahələrdə ölkələrimiz uğurlu əməkdaşlıq edir[1].

2005-ci il aprelin 12-13-də Türkiyədə keçirilmiş Azərbaycan – Türkiyə hökumətlərarası müştərək iqtisadi komissiyasının üçüncü iclasının protokolunda turizm sahəsi ilə bağlı məsələlər üzrə də razılığa gəlinmişdir[2].

Azərbaycan ilə Türkiyə arasında turizm sahəsində əməkdaşlıq məsələsi 2006-cı ilin iyulunda hər iki dövlət tərəfindən qəbul edilmiş "Azərbaycan Respublikası və Türkiyə Respublikası arasında uzunmüddətli iqtisadi əməkdaşlıq proqramı və icra planı"nda da[3] öz əksini tapmışdır. Burada digər sahələrlə yanaşı, "Turizm sahəsində əməkdaşlıq" bölməsində qeyd edilirdi ki, Türkiyə və Azərbaycan turizm potensialının hər iki ölkə vətəndaşlarının daha səmərəli şəkildə tanıdılması məqsədi ilə əməkdaşlıq davam edəcək, hər iki ölkənin dövlət qurumları və özəl sektora aid şirkətlər arasında əlaqələrin gücləndirilməsi təmin ediləcək, Azərbaycandakı turizm infrastrukturunun yenilənməsi və ya inkişafı istiqamətindəki işlərdə əməkdaşlıq imkanları müzakirə ediləcəkdir.

Təhsil sahəsində əməkdaşlıq sonrakı illərdə də davam etdirildi. 2006-cı il sentyabrın 18-20-də keçirilmiş X türk dövlət və topluluqları dostluq, qardaşlıq və əməkdaşlığı qurultayında qəbul edilmiş 36 bənddən ibarət qərarda bilavasitə təhsillə bağlı çox böyük əhəmiyyət kəsb edən təklif və qənaətlər öz əksini tapmışdır[4].

Azərbaycan Respublikası Təhsil Nazirliyi ilə Türkiyə Respublikası Milli Təhsil Nazirliyi arasında 2000-ci ilin dekabrında imzalanmış təhsil və elm sahələrində əməkdaşlıq haqqında Protokolunun 1, 2 və 4-cü maddələrinə əsasən azərbaycanlı gənclərin Türkiyənin ali məktəblərində dövlət xətti ilə təhsil almaları üçün Türkiyə dövləti 2008-ci ildə 125 nəfərlik yer ayırdı. 2008-ci ilin məlumatına görə, Türkiyə ali məktəblərində 563 nəfər Azərbaycan vətəndaşı təhsil almışdır.

---

[1] Azərbaycanın xarici siyasəti: sənədlər məcmuəsi. 2004. I hissə. Bakı, 2009, s. 200.
[2] Azərbaycan Respublikası Mədəniyyət Nazirliyinin Beynəlxalq əlaqələr şöbəsinin Türkiyə Cümhuriyyəti ilə əməkdaşlıq üzrə qovluğu, 2003-2010.
[3] Yenə orada.
[4] Azərbaycan Respublikası Təhsil Nazirliyinin Xarici əlaqələr şöbəsinin Türkiyə Cümhuriyyəti ilə əməkdaşlıq üzrə iş qovluğu, 2003-2010.

Həmin protokola əsasən azərbaycanlı gənclərin Türkiyənin ali məktəblərində dövlət xətti ilə təhsil almaları üçün Türkiyə dövləti 2009-2010-cu tədris ili üçün 125 nəfərlik yer ayırdı. 2009-cu ilin məlumatına görə isə bu xətt ilə Türkiyə ali məktəblərində 514 nəfər Azərbaycan vətəndaşı təhsil almışdır[1].

Məlum olduğu kimi, Azərbaycan torpaqlarının Ermənistan tərəfindən işğalı, ölkənin hərbi təhsil sisteminin daha da güclü inkişaf etdirməyə vadar etdi. Bu baxımdan Türkiyə tərəfi Azərbaycanın Avroatlantik məkana inteqrasiyası çərçivəsində işləri dəstəkləyir. Bu məqsədlə Azərbaycan Türkiyənin hərbi təhsil sahəsində ən sıx əməkdaşlığının olduğu və Türkiyə Silahlı Qüvvələri tərəfindən təhsil dəstəyinin təmin edildiyi ölkələr arasında ön sıradadır. 11 avqust 1992-ci ildə imzalanmış "Hərbi təhsil sahəsində əməkdaşlıq haqqında" müqavilə və 10 iyun 1996-cı ildə imzalanmış "Hərbi sahədə təhsil, texniki və elmi əməkdaşlıq razılaşması" çərçivəsində Türkiyə ilə Azərbaycan hərbi təhsil sahəsində əməkdaşlıq edir. Tədqiq olunan dövrə qədər Türkiyə Silahlı Qüvvələrinin təhsil müəssisələrində 5000-ə yaxın azərbaycanlı hərbçi təhsil amışdır[2].

Ümumiyyətlə, mədəniyyət, elm və təhsil sahəsində 2003-2010-cu illərdə Azərbaycan – Türkiyə əməkdaşlığının hüquqi-siyasi əsaslarının araşdırılması göstərir ki, bu əlaqələrin davamlı və təminatlı inkişafı əsasən dövlətlərarası siyasi münasibətlərin səviyyəsi ilə müəyyənləşdirilmişdir. Araşdırılan illərdə müvafiq sahələrdə əməkdaşlığın müqavilə-hüquq bazası yaradılmış və inkişaf etdirilmişdir.

Dissertasiya işininın **"Mədəniyyət sahəsində əməkdaşlığın əsas istiqamətləri və inkişafı"** adlı ikinci fəsil altı paraqrafda ibarətdir. Birinci paraqrafda Azərbaycan ilə Türkiyə arasında **incəsənət sahəsində əməkdaşlığı**n əsas istiqamətləri və formaları şərh edilmişdir. Vurğulanmışdır ki, Azərbaycan Respublikası Mədəniyyət Nazirliyi ilə yanaşı Diaspora Komitəsi də iki ölkə arasında mədəniyyət sahəsində əməkdaşlıqda mühüm işlər aparmaqdadırlar. Komitə Azərbaycan mədəniyyətinin təbliği məqsədilə 2003-cü il ərzində xarici ölkələrdə bir sıra Azərbaycan icma və birlikləri – Türkiyənin İzmir, Manisa və Tre şəhərlərində "Azərbaycan Kültür və Dayanışma" cəmiyyətləri kimi yeni milli qurumlar təsis etmişdir. İzmirin "Gündoğdu" meydanında Azərbaycan diaspor təşkilatlarının iştirakı ilə keçirilən tədbir Azərbaycan incəsənət

---

[1] Yenə orada.
[2] http://az.trend.az/

ustalarının konsert proqramları, Komitənin bu sahədə apardığı işdən xəbər verir.[1]

Azərbaycan mədəniyyət müəssisələri Türkiyədə bir neçə uğurlu çıxışlar etmişlər. Belə ki, 2004-cü il fevralın 6-da Müslüm Maqomayev adına Azərbaycan Dövlət Filarmoniyasında dünya şöhrətli musiqiçi, türkiyəli fleytaçı Şefika Kutluerin konserti keçirildi.[2]

Araşdırılan illərdə rəssamlıq sahəsində də Azərbaycan ilə Türkiyə arasında təcrübə və sənət mübadiləsi uğurla həyata keçirilmişdir. Azərbaycan Rəssamlar İttifaqının təşkilatçılığı ilə keçirilən sərgidə 2004-cü il aprel ayının 4-də Bakıda Vəcihə Səmədova adına sərgi salonunda tanınmış türk rəssamı Mutluxan Taşın "Eşq" adlı fərdi yaradıcılıq sərgisi açıldı. Aprel ayının 30-da isə türkiyəli gənc rəssam, Azərbaycan Dövlət Rəssamlıq Akademiyasının IV kurs tələbəsi Tahir Çelikbağın fərdi yaradıcılıq sərgisində rəssamın rəngkarlıq janrında 50-yə yaxın əsəri nümayiş etdirildi[3]. Bunun davamı olaraq 2007-ci il yanvarın 29-da İstanbulun Şişli rayonundakı Sənət qalereyasında gənc və istedadlı rəssam Rza Sadiqin əsərlərindən ibarət sərginin açılışı oldu.

Təqdiqat göstərir ki, müasir Azərbaycan teatrının ən böyük uğurlarından biri onun dünya mədəniyyətinə inteqrasiya etməsi və eyni zamanda Azərbaycan teatrına olan marağın artmasıdır. Bu baxımdan "Yuğ" Dövlət Teatrı "Teatr əməkdaşlığı və mübadiləsi" adlı beynəlxalq layihəni həyata keçirdi. Layihədə Kars (Türkiyə), Kutaisi (Gürcüstan) və Gəncə (Azərbaycan) teatrlarının aktyorları iştirak etdilər[4].

Görkəmli Azərbaycan şairi Almas İldırımın 100 illik yubileyinə həsr olunmuş tədbirdə iştirak etmək, habelə Azərbaycan və Türkiyə arasında mədəniyyət və turizm sahələrində ikitərəfli əməkdaşlığını inkişaf etdirmək məqsədilə Türkiyənin mədəniyyət və turizm naziri Ərtoğrul Günayın rəhbərliyi ilə nümayəndə heyəti 2007-ci il sentyabrın 28-29-da Azərbaycan Respublikasına səfər etdi. Sentyabr 28-də nümayəndə heyətini Azərbaycan

---

[1] Xarici Ölkələrdə Yaşayan Azərbaycanlılarla İş üzrə Dövlət Komitəsinin 2003-2010-cu illərin yekunları barədə hesabatları.
[2] Bakıda türkiyəli fleytaçi Şefika Kutluerin konserti keçirildi. "Azərbaycan" qəz., Bakı, 2004, 2 fevral.
[3] Vəcihə Səmədova adına sərgi salonunda tanınmış türk rəssamı Mutluxan Taşın "Eşq" adlı fərdi yaradıcılıq sərgisi açılmışdır. "Azərbaycan" qəz., Bakı, 2004, 21 aprel.
[4]Azərbaycan Respublikası Mədəniyyət Nazirliyinin Beynəlxalq əlaqələr şöbəsinin Türkiyə Cümhuriyyəti ilə əməkdaşlıq üzrə qovluğu, 2003-2010.

Respublikası Prezidenti İlham Əliyev qəbul etdi. Görüş zamanı iki ölkə arasında əməkdaşlığın genişləndirilməsi məsələləri müzakirə edildi.

Araşdırmadan məlum olur ki, XX əsrin 90-cı illərindən başlayaraq Türkiyə teatrlarında dahi Azərbaycan bəstəkarları Üzeyir Hacıbəyovun "Arşın mal alan", "O olmasın bu olsun" musiqili komediyaları, Qara Qarayevin "Yeddi gözəl" baleti, xalq yazıçısı Elçinin "Qatil" əsəri və b. Türkiyədə səhnələşdirilmişdir

Məlum məqsədləri reallaşdırmaq üçün 2008-ci il sentyabrın 23-də Azərbaycan Respublikası Mədəniyyət və Turizm Nazirliyi ilə Türkiyənin Mədəniyyət və Turizm Nazirliyi arasında birgə film çəkilməsi haqqında imzalanmış niyyət protokoluna [1] əsasən iki ölkə arasında birgə filmlərin çəkilişlərinin başlanmasına start verildi.

2010-cu ildə yaradılan "Türk xalqlarının musiqi birliyi" adlanan televiziya kanalı vasitəsi ilə türk xalqları ümumi dil tapmağa çalışmışlar. Uğurla həyata keçirilən layihələr Azərbaycan və Türkiyənin daha da yaxınlaşmasına, mədəniyyət sahəsində münasibətlərin genişlənməsinə, sıx əlaqələrin yaranmasına kömək etmişdir.

İkinci fəslin ikinci paraqraflarında Azərbaycan ilə Türkiyə arasında **mədəniyyət günlərinin** təşkili məsələləri araşdırılmışdır**.** Mədəniyyət günlərinin əsas məqsədi hər hansı bir ölkədə Azərbaycanın mədəniyyət və incəsənətini tanıtmaqdır. Vurğulanmışdır ki, dünyanın heç bir xarici ölkəsində Azərbaycan mədəniyyəti, incəsənəti, musiqisi Türkiyədəki kimi davamlı şəkildə təmsil olunmur. Tədqiq olunan illərdə ilk dəfə olaraq İstanbulda 2010-cu ildə Avropa Mədəniyyəti Paytaxtı elan olunması ilə əlaqədar Türkiyədə Azərbaycan mədəniyyəti günləri keçirilmişdir.

Üçüncü paraqrafda iki ölkə arasında **ədəbi əlaqələrin** inkişafı təhlil edilmişdir. Göstərilmişdir ki, tədqiq olunan illərdə Azərbaycanın Türkiyə ilə ədəbi əlaqələrin inkişafinda birgə tədbirlərin xüsusi rolu olmuşdur. Ədəbi əlaqələrdə kitab tərcüməsi və nəşri, şair və yazıçıların qarşılıqlı səfərləri və s. mühüm yer tutmuşdur. Xalq yazıçıları Anara və Elçinə həsr edilmiş iki poçt markası çap olunmuşdur. Bu, tanınmış yazıçılara Türkiyədə olan diqqət, hörmət və ehtiramın əyani nümunəsi kimi dəyərləndirilmiş və qarşılıqlı olaraq Azərbaycanda da Türkiyənin mədəni irsi mütəmadi diqqətdə saxlanılmışdır.

**"Turizm sahəsində əməkdaşlığın inkişafı"** adlanan dördüncü paraqrafda Azərbaycan və Türkiyə arasında turizm sahəsində əməkdaşlıq məsələləri tədqiq edilmişdir. Araşdırma göstərir ki, Azərbaycan ilə Türkiyə

[1] Yenə orada.

arasında turizmin inkişafında turizm sərgilərinin böyük rolu olmuşdur. Bu məqsədlə Mədəniyyət və Turizm Nazirliyi Azərbaycanın müxtəlif ölkələrdə keçirilən beynəlxalq turizm sərgilərində təmsil edilməsini mütəmadi olaraq təmin etmişdir. 2009-cu il fevralın 12-dən 15-dək İstanbul şəhərində keçirilən "EMİTT - 2009" beynəlxalq turizm sərgisində Azərbaycanın turizm potensialı geniş şəkildə nümayiş etdirildi.

Tədqiqatdan aydın olur ki, Azərbaycan ilə Türkiyə arasında turizm sahəsində əməkdaşlığın yüksək inkişafı nəticəsində hər iki ölkəyə gələn turistlərin sayı ilbəil artmışdır. Belə ki, əvvəlki illərə nisbətən 2009-cu ildə Türkiyə səfər edən azərbaycanlıların sayı artaraq 424 min nəfər olmuşdur. Bu baxımdan Türkiyəyə gələn xaricilərin içərisində azərbaycanlıların sayı 1,5 - 2 % təşkil etmişdir [1]. Bakıda yerləşən Türkiyə Respublikasının Mədəniyyət və Turizm Nazirliyini təmsil edən Türkiyə Mədəniyyət və İnformasiya Mərkəzinin əsas missiyası Azərbaycanda Türkiyə mədəniyyətini və turizmini təşviq etmək olmuşdur.

Araşdırılan illərdə beynəlxalq standartlara cavab verən tədris və təlim fəaliyyətlərini həyata keçirmək məqsədilə Azərbaycan Turizm İnstitutu türkiyəli ekspertlərin iştirakı ilə bir sıra layihələr həyata keçirmişdir. Burada bilavasitə Türkiyə Respublikasının mədəniyyət və turizm naziri Ərtoğrul Günayın dəstəyilə Azərbaycan turizm sənayesinin kadr təminatının yaxşılaşdırılması istiqamətində TİKA ilə birlikdə təşkil olunan treninq proqramları xüsusi qeyd olunmalıdır.

Tədqiq edilən illərdə Mədəniyyət və Turizm Nazirliyi tərəfindən mövcud turizm potensialının beynəlxalq aləmdə tanıdılması, turistlərin Azərbaycana çoxsaylı səfərlərinin təşkili, turizmin müxtəlif növlərinin inkişaf etdirilməsi, hüquq-müqavilə əsaslarının qəbul edilməsi, turizm sahəsində orta və kiçik sahibkarlığın inkişaf etdirilməsi, müasir turizm infrastrukturunun yaradılması sahəsində geniş fəaliyyət görülmüşdür. Bu illər ərzində Azərbaycanda turizm sahəsində çoxsaylı beynəlxalq tədbirlər keçirilmiş və marşrutlar işlənmişdir.

**"Mədəniyyət sahəsində əməkdaşlıqda qardaşlaşmış şəhərlərin yeri"** adlanan beşinci paraqrafda Azərbaycan və Türkiyə arasında qardaşlaşmış şəhərlər sahəsində əməkdaşlıq məsələləri təhlil edilmişdir. Vurğulanmışdır ki, Azərbaycan Respublikasının dövlət müstəqilliyi bərpa etdildikdən sonra bu əlaqələrin inkişafına münbit şərait yarandı. Lakin müstəqilliyin ilk

[1] Azərbaycan Respublikası Mədəniyyət Nazirliyinin Beynəlxalq əlaqələr şöbəsinin Türkiyə Cümhuriyyəti ilə əməkdaşlıq üzrə qovluğu, 2009.

illərində Ermənistanın Azərbaycana təcavüzü, ölkə daxilindəki iqtisadi və siyasi sabitliyin olmaması bu prosesi nisbətən ləngidirdi. Bu dövrdə nəzərdə tutulan bir sıra layihələrin həyata keçirilməsi mümkün olmadı. Məsələn, 1992-1993-cü illər Sumqayıt şəhəri ilə Türkiyənin Mersin şəhəri arasında əməkdaşlığı nəzərdə tutulan layihə kağız üzərində qaldı. Lakin bütün bunlara baxmayaraq, əvvəl yaranmış əlaqələri bu dövrdə çətinliklə də olsa qoruyub saxlamaq mümkün oldu. Bu əlaqələrdə xüsusi bir mərhələni 2003-cü ildən sonrakı dövr təşkil edir. İkitərəfli əlaqələr daha dərin forma almış, belə ki, qardaşlaşmış şəhərlərlə əməkdaşlıq nəticəsində bu əməkdaşlıqdan qardaşlaşmış bələdiyyələr və məktəblər layihəsi meydana çıxmış, nəticədə Azərbaycan və Türkiyə arasında olan münasibətləri daha da sıxlaşdırmışdır. Tədqiqata cəlb olunmuş materiallarından məlum olur ki, 2003-2010-cu illərdə Azərbaycan Respublikasının Türkiyə ilə əməkdaşlığının inkişafında qardaşlaşmış şəhərlərin böyük rolu olmuşdur.

Altıncı paraqrafda **Azərbaycan – Türkiyə mədəni əməkdaşlığında TÜRKSOY-un rolu** geniş şəkildə araşdırılmışdır**.** Tədqiqat göstərir ki**,** eyni soya, dilə, tarixi və mədəni keçmişə, adət-ənənəyə malik olan xalqlarımızın mənəvi həyatında gedən prosesləri əlaqələndirmək və düzgün istiqamətləndirmək məqsədi ilə həmin dövrdə TÜRKSOY təşkilatının yaradılması bu yolda vaxtında atılmış faydalı addım olmuşdur. Məlum olduğu kimi, təşkilatın yaradılması və fəaliyyət prinsipləri haqqında müqaviləyə müvafiq olaraq TÜRKSOY aşağıdakı mühüm funksiyaları uğurla həyata keçirir: türk ölkələri arasında mədəniyyət və incəsənət sahəsində əlaqələri daha da möhkəmləndirmək və inkişaf etdirmək üçün muxtəlif proqram və layihələr həyata keçirmək; ümumi mənəvi dəyərləri, tarixi irsi, mədəniyyət və incəsənət əsərlərini, ənənəvi idman növlərini və xalq oyunlarını təbliğ etmək; televiziya və radio proqramları, sənədli, video, kinofilmlər hazırlamaq, türk dünyasının ən yaxşı mədəniyyət və incəsənət nailiyyətlərini populyarlaşdırmaq; incəsənətin teatr, musiqi, opera və balet növlərində birgə festivalları, müsabiqələri və başqa tədbirləri keçirmək; sərgiləri təşkil etmək, incəsənətin və heykəltəraşlığın inkişafına yönələn tədbirləri həyata keçirmək; davamlı olaraq çap məhsullarını nəşr etmək; türk dünyasının tarixində mühüm əhəmiyyət kəsb edən tarixi şəxsiyyətlərin, mədəniyyət, incəsənət, ədəbiyyat hadisələrinin xatırlanması üçün kütləvi tədbirləri, yubileyləri keçirmək; TÜRKSOY-un məqsəd və vəzifələri çərçivəsində beynəlxalq elmi konfrans və simpoziumlar təşkil etmək; mədəniyyət və incəsənət sahəsində fəaliyyət göstərən başqa milli,

beynəlxalq təşkilatlarla, ictimai strurkturlar və hərəkatlarla əlaqələr saxlamaq, əməkdaşlıq üçün müxtəlif birgə tədbirləri reallaşdırmaq və s.[1]

TÜRKSOY təşkilatının yaradılması və onun ümumtürk mədəniyyətinin qorunub saxlanması sahəsindəki fəaliyyəti bir daha təsdiq edir ki, 2003-2010-cu illərdə xalqlarımız və ölkələrimiz arasında çoxtərəfli ədəbi-mədəni əməkdaşlıq birinci növbədə müştərək mədəniyyətlərin, adət-ənənələrin, tarixin, milli-mənəvi dəyərlərin bərpası, qorunub saxlanması və daha da inkişaf etdirilməsi yolunda müsbət nəticələr vermiş, fəaliyyət zamanı buraxılmış səhvlər aşkarlanaraq üzə çıxarılmış, gələcək inkişaf üçün geniş perspektivlər açılmışdır.

**"Elm və təhsil sahələrində əməkdaşlığın inkişaf dinamikası"** adlı üçüncü fəsil üç paraqrafdan ibarətdir. Birinci paraqrafda Azərbaycanla Türkiyə arasında **orta təhsil sahəsində əməkdaşlığın inkişaf perspektivləri** araşdırılmışdır. Araşdırmadan aydın olur ki, Türkiyə ilə orta təhsil sahəsində əməkdaşlıqda Çağ Öyrətim İşlətmələri şirkətinin liseylərinin Azərbaycanda fəaliyyətinin xüsusi əhəmiyyəti olmuşdur. Ulu öndər Heydər Əliyevin 1991-ci il noyabrın 1-də Naxçıvanda imzaladığı tarixi sənədlə Muxtar Respublikada fəaliyyətə başlayan türk liseyləri Azərbaycanın pedaqoji həyatında xüsusi yer tutmuşdur. İlk dəfə azərbaycanlı şagirdlərin beynəlxalq olimpiadalardan gətirdikləri medallar məhz bu liseylərin şagirdlərinin payına düşür.

Araşdırılan illərdə də iki ölkə arasında orta təhsil sahəsində əməkdaşlıq davam etdirilmişdir. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Türkiyə Respublikasının Prezidentinin dəvəti ilə 2004-cü ilin aprelin ayında Türkiyədə rəsmi səfərdə olarkən iki ölkə arasında ikitərəfli münasibətlərin bütün sahələrdə inkişafı imkanları müzakirə olunmuş və birgə bəyannamə imzalanmışdır. Bəyannamədə tərəflər təhsil sahəsindəki qarşılıqlı mübadiləni dəstəkləmiş, Bakı Türk Anadolu Liseyinin nəzdindəki ibtidai və orta təhsil məktəblərinin fəaliyyətlərinin daha da səmərəliliyinin təmin edilməsi üçün müvafiq tədbirlərin həyata keçirilməsini qərara almışlar[2].

İki ölkənin məktəbləri, pedaqoqları və şagirdləri arasında münasibətlərin formalaşması və möhkəmlənməsi, ölkələrin mədəni, tarixi və turizm dəyərləri ilə tanışlıq, lazımi ədəbiyyat və avadanlıqların təminatında qarşılıqlı yardımın dəstəklənməsi, şagirdlər arasında dostluq münasibətlərinin yaradılması və informasiya mübadiləsi məqsədilə Türkiyədə 91 məktəb

---

[1] Azərbaycan Respublikası Mədəniyyət Nazirliyinin Beynəlxalq əlaqələr şöbəsinin TÜRKSOY ilə əməkdaşlıq üzrə qovluğu, 2005.

[2] Azərbaycanın xarici siyasəti: sənədlər məcmuəsi. 2004. I hissə, s. 541.

Azərbaycan məktəbləri ilə "qardaş məktəb" elan olunmuşdur. Bundan əlavə, Azərbaycanda Türkiyənin Dini İşlər üzrə Fondu, Türk Dünyasının Tədqiqi Fondu və Çağ Öyrətim İşlətmələri şirkətinin xətti ilə 26 təhsil mərkəzi fəaliyyət göstərmişdir. Türk dünyasının tədqiqi mərkəzinin xətti ilə bir lisey, bir tədqiqat fakültəsi, Türkiyə Dini İşlər üzrə Fondun xətti ilə bir lisey, bir ilahiyyat fakültəsi, açılmışdır[1].

Tədqiq edilən illərdə Azərbaycan və Türkiyənin təhsil nazirlikləri mövcud əməkdaşlığın gələcəkdə genişləndirilməsi istiqamətində qarşılıqlı fəaliyyət göstərmişlər. Belə ki, Türkiyədə də Heydər Əliyev Fondunun rəhbərliyi ilə Azərbaycan məktəb-liseyləri tikilmişdir. Hər iki ölkənin təhsil sahəsində əməkdaşlığında əsas məqsəd tarixin verdiyi imkanları yüksək səviyyədə qiymətləndirməkdir. Bu məqsədlərə nail olmaq üçün ixtisaslaşmış və texniki təhsilin inkişafı layihəsi çərçivəsində pilot məktəblərin yaradılması üzrə işlər aparılmış və bununla bağlı seçilmiş müəllimlər Türkiyə və Azərbaycanda əlavə hazırlıq keçmişlər, layihənin gerçəkləşməsi üçün vacib olan kitabların hazırlanmasına dəstək verilmişdir, Türkiyədə azərbaycanlı məzunların təcrübə keçməsi üçün imkanlar yaradılmışdır. Tədqiqat göstərir ki, Azərbaycan Respublikası ilə Türkiyə Cümhuriyyəti arasında ikitərəfli sazişlər, protokollar və komissiya görüşləri çərçivəsində orta təhsil sahəsində uğurla əməkdaşlıq edir. Bu məqsədlə Türkiyə Təhsil Nazirliyinin xətti ilə Azərbaycanda bir Anadolu liseyi, bir orta məktəb, bir türk dili tədris mərkəzi açılmışdır. 2010-2011-ci tədris ilinin əvvəlinə olan məlumatlara görə, bu təhsil ocaqlarında 64 müəllim çalışır və 925 şagird təhsil alır, 622 nəfər isə kurslara gedirdi. 2009/2010-cu tədris ilinin sonuna olan məlumatları da nəzərə almaqla Bakıda türk orta məktəbini 224 nəfər, Anadolu türk liseyini 640 nəfər bitirmiş, 1340 nəfər türk dili tədris mərkəzində türk dilinin öyrənilməsi üzrə sertifikat almışdır[2]. Azərbaycan ilə Türkiyə arasında hələ 90-cı illərin başlanan və 2000-ci illərin əvvəllərindən etibarən geniş vüsət alan təhsil əlaqələri 2003-2010- cu illərdə daha və dinamik olmuşdur.

İkinci paraqrafda Azərbaycanla Türkiyə arasında **ali təhsil və elmi müəssisələr arasında əməkdaşlığın qurulması və inkişafı** təhlil edilmişdir**.** Araşdırılan illərdə təhsil sahəsində beynəlxalq əlaqələrin, o cümlədən Türkiyə ilə əməkdaşlığın mühüm istiqamətlərindən biri də ayrı-

---

[1] Azərbaycan Respublikası Təhsil Nazirliyinin Xarici əlaqələr şöbəsinin Türkiyə Cümhuriyyəti ilə əməkdaşlıq üzrə iş qovluğu, 2003-2010.

[2] Azərbaycan Respublikası Təhsil Nazirliyinin Xarici əlaqələr şöbəsinin Türkiyə Cümhuriyyəti ilə əməkdaşlıq üzrə iş qovluğu, 2003-2010.

ayrı ölkələrlə birbaşa təhsil əlaqələrinin qurulması, əməkdaşlıq haqqında saziş və protokolların imzalanması olmuşdur. Azərbaycan Respublikası ilə Türkiyə Cümhuriyyəti arasında təhsil sahəsində əməkdaşlığın əsas istiqamətləri tələbə, şagird və magistr mübadiləsi, birgə elmi tədqiqatlar, beynəlxalq və regionlararası təhsil proqramlarına qoşulma və onların işində yaxından iştirak etməkdən ibarət olmuşdur.

2003-cü ildə Türkiyə ilə təhsil sahəsində əməkdaşlıq tarixində xüsusi səhifələrdən biri fevralın 28-də imzalanmış "Azərbaycan Respublikasının Dini Qurumları İşi üzrə Dövlət Komitəsi ilə Türkiyə Respublikasının Diyanət İşləri Başkanlığı arasında dini təhsil sahəsində əməkdaşlıq haqqında protokol"u oldu. Azərbaycanlı tələbələrin Bakı Dövlət Universitetinin İlahiyyat fakültəsində təhsil almaları məqsədi ilə Türkiyə və Azərbaycanın təhsil orqanları arasında mövcud əməkdaşlıq və fakültənin gələcək fəaliyyətinə yardım naminə lazımi tədbirləri birgə həyata keçirməkdən ötrü razılığa gələn tərəflər, bununla birlikdə zəruri görüldüyü hallarda azərbaycanlı tələbələrin Türkiyədəki İlahiyyat fakültələrində təhsil almaları və Bakı Dövlət Universitetinin İlahiyyat fakültəsinin məzunlarının Türkiyədə aspirantura və doktorantura təhsili almaları üçün şərait yaradılmasının davam etdirilməsini dəstəklədiyini bildirdilər[1].

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin 2004-cü il aprelində Türkiyədə rəsmi səfər zamanı imzalanan birgə bəyannamədə tərəflər təhsil sahəsindəki qarşılıqlı mübadilənin dəstəklənməsi, müştərək təhsil və elm komissiyasının fəaliyyətinin gücləndirilməsi, iki ölkə ədəbiyyatının qarşılıqlı olaraq yayılması, həmçinin, Müştərək Tarix Komissiyasının yaradılması və müştərək tarix kitabının hazırlanması işlərinin başlanması məsələsində razılıq əldə etmişlər[2].

Azərbaycan ilə Türkiyə arasında təhsil sahəsində qarşılıqlı əməkdaşlığın bariz nümunəsi kimi 2005-ci ilin 11-13 mart tarixində Azərbaycanda Türkiyənin ali məktəblərinin "Türkiyədə təhsil: Şərqin Qərblə qovuşduğu nöqtə" adlı sərgisinin keçirilməsi olmuşdur[3].

Tədqiq edilən illərdə Azərbaycan ilə Türkiyə arasında elmi əlaqələrin inkişaf etdirilməsi sahəsində səmərəli fəaliyyət göstərilməsində elmi simpozium, seminar və konfransların mühüm rolu olmuşdur. Bu istiqamətdə bir sıra uğurlu işlər görülmüş, türkiyəli alimlər Azərbaycanda,

---

[1] Azərbaycanın xarici siyasəti: sənədlər məcmuəsi. 2003. II hissə, s 457-460.
[2] Azərbaycanın xarici siyasəti: sənədlər məcmuəsi. 2004. I hissə, s. 199-200.
[3] Azərbaycan ilə Türkiyə arasında təhsil sahəsində əməkdaşlıq inkişaf edir. "Ədəbiyyat qəzeti" qəz., Bakı, 2005, 18 mart.

azərbaycanlı alimlər isə Türkiyədə keçirilmiş çoxsaylı elmi tədbirlərdə faydalı iştirakları ilə elmi əlaqələrin problemlərini və həlli yollarını birgə aramışlar. Bu baxımdan Azərbaycanda keçirilmiş birgə konfranslara nümunə olaraq AMEA Folklor İnstitutunun ənənəvi xarakter almış "Ortaq türk keçmişindən ortaq türk gələcəyinə" Beynəlxalq Folklor Elmi Konfransını göstərmək olar. Beynəlxalq Folklor Elmi Konfransında türk xalqlarının elmi elitasını təmsil edən alimlərin fikir və mülahizələrini bir araya gətirən Beynəlxalq elmi tədbir kimi gerçəkləşmişdir. Konfransın keçirilməsində məqsəd qloballaşan və çağdaşlaşan dünyada türk xalqlarının layiq olduqları yeri tutmasında, yeni dünya düzənində türk humanitar gerçəkliyinin mövqeyinin müəyyənləşməsində elmi konseptual strategiyanın və proqramın hazırlanmasıdır[1].

Tədqiqat göstərir ki, təhsil sahəsində yaradılan əməkdaşlıq birgə proqram və layihələrin reallaşdırılmasına, tələbə, müəllim mübadiləsinə, təhsil sənədlərinin qarşılıqlı tanınmasına, innovasiyaların tətbiqinə, ümumilikdə, ölkə təhsilinin inkişafına və beynəlxalq aləmə inteqrasiyasına əlverişli imkan yaratmaqla yanaşı, son nəticədə ölkələr arasında siyasi, iqtisadi və mədəni əlaqələrin təşəkkülünə gətirib çıxarır.

Üçüncü paraqrafda Azərbaycanla Türkiyə arasında **tələbə mübadiləsi** sahəsində əməkdaşlıq məsələləri təhlil edilmişdir. Araşdırılan illərdə Aərbaycan Respublikası ilə Türkiyə Cümhuriyyəti arasında təhsil sahəsində çoxtərəfli əməkdaşlığı həyata keçirmək üçün lazımi hüquqi baza yaradıldı. İlk başlanğıcda Azərbaycan ali məktəblərində verilən ixtisasların və diplomların Türkiyə tərəfindən tanınması məsələsi öz həllini tapmamışdır. Bu, sonrakı illərdə Azərbaycan ali məktəblərini bitirən Türkiyə vətəndaşlarının diplomlarının Türkiyənin müvafiq qurumları tərəfindən tanınmasında müəyyən problemlərin yaranmasına səbəb olmuşdur. Türkiyə vətəndaşları yalnız ölkələrinin Ali Təhsil Şurası (YÖK) tərəfindən tanınan ali məktəblərin müvafiq ixtisaslarında təhsil aldıqda belə problemlərlə rastlaşmırdılar. Məsələnin həlli üçün hüquqi bazanın yaradılması son dərəcə zəruri olmuş və bu məsələ 1998-ci ilin noyabrında Türkiyədə imzalanmış "Azərbaycan Respublikası Təhsil Nazirliyi ilə Türkiyə Respublikası Milli Təhsil Nazirliyi və Ali Təhsil Şurası rəhbərliyi arasında təhsil və elm

[1] Kərimov M. "Ortaq türk keçmişindən ortaq türk gələcəyinə" Beynəlxalq Folklor Elmi Konfransının acılış iclasındakı nitqi / "Ortaq türk keçmişindən ortaq türk gələcəyinə". Bakı, 13-16 noyabr 2005, s. 3-4.

sahələrində əməkdaşlıq haqqında razılıq Protokolu"nda [1] öz əksini tapmışdır. Bununla da iki ölkə arasında tələbə mübadiləsində yeni bir mərhələnin əsası qoyulmuşdur. Belə ki, bu protokolun Türkiyə ilə təhsil sahəsində imzalanmış əvvəlki sənədlərdən əsas fərqi məhz türkiyəli gənclərin Azərbaycan ali məktəblərində təhsil alması və onların təhsil sənədlərinin Türkiyədə tanınmasının təsbit edilməsində idi. İmzalanmış protokola əsasən hüquq, beynəlxalq hüquq, tibb, inşaatla əlaqədar olan ixtisaslar istisna olmaqla, digər ixtisaslar üzrə diplomların tanınması o dövr üçün bir uğur olmuşdur.

Protokolun daha bir əhəmiyyətli cəhəti ondan ibarət idi ki, bundan sonra Türkiyə tərəfinin Azərbaycana ayırdığı təqaüdlərin universitetlər və ixtisaslar üzrə bölgüsü Azərbaycan tərəfinin təklifləri əsasında formalaşmağa başladı. Həmin vaxtadək Türkiyəyə dövlət xətti ilə göndərilən tələbələr heç də həmişə Azərbaycan üçün gərəkli ixtisaslara uyğun təhsil almırdılar. Yəni göndərilən tələbələrin təhsil alacaqları ixtisaslar və ali məktəblər YÖK tərəfindən müəyyən olunurdu. Buna görə də qeyd olunan prinsipin tətbiqi ayrılan yerlərdən daha səmərəli istifadəni və Azərbaycan üçün zəruri ixtisaslar üzrə kadr hazırlığını təmin etmiş oldu.

2009-2010-cu tədris ilində xarici ölkələrdə dövlət xətti ilə təhsil alan azərbaycanlı tələbələr haqqında statistik məlumata (01.12.2010-cu ilə olan göstəricilər) görə, dövlət xətti ilə Türkiyə Cümhuriyyətində təhsil alan azərbaycanlı tələbələrin ümumi sayı 503 nəfər olmuşdur. Bunlardan 40-ı dil hazırlığı, 202-si bakalavr, 61-i magistratura, internaturada, 101-i klinik ordinatura, rezidenturada, 99-u doktoranturada təhsillərini davam etdirmişlər[2].

Araşdırmadan məlum olur ki, digər xarici ölkələrin universitetləri ilə müqayisədə Türkiyədə ali təhsil alan tələbələrin sayı çox olmuşdur. Azərbaycanın müxtəlif ali məktəblərində təhsil alan türkiyəli tələbələrin də sayı ilbəil artmışdır. Türkiyədən gələn tələbələrin Azərbaycan ali məktəblərinə qəbulu digər ölkələrlə müqayisədə fərqli proseduralarla aparılmışdır. Belə ki, Azərbaycan ali məktəblərində təhsil almaq istəyən Türkiyə vətəndaşları yalnız bu ölkənin YÖK tərəfindən tanınmış ali məktəblərin müəyyən ixtisaslarında təhsil ala bilərlər.

---

[1] Azərbaycan Respublikası Təhsil Nazirliyinin Xarici əlaqələr şöbəsinin cari arxivi. Türkiyə Cümhuriyyəti ilə əməkdaşlıq üzrə iş qovluğu, 1998.

[2] Azərbaycan Respublikası Təhsil Nazirliyinin Xarici əlaqələr şöbəsinin Türkiyə Cümhuriyyəti ilə əməkdaşlıq üzrə iş qovluğu, 2003-2010.

Azərbaycan Respublikası ilə Türkiyə Cümhuriyyəti arasında təhsil, əsasən də tələbə mübadiləsi sahəsində əməkdaşlığını genişləndirilərək inkişaf etdirilməsi şübhəsiz ki, iki ölkənin daha da yaxınlaşmasına, hərtərəfli əməkdaşlığın daha da inkişaf etdirilməsinə, iqtisadiyyatların modernləşdirilməsinə və dünya iqtisadi birliyinə inteqrasiyasına və s. öz töhfəsini vermişdir. Əsasən də iki ölkənin tələbə mübadiləsi sayəsində dünya elmində layiqincə təmsil olunmasına və gələcəkdə daha böyük elmi nailiyyətlər əldə etmələri üçün zəmin yaratmışdır.

Dissertasiyanın **Nəticə** hissəsində tədqiqata yekun vurulmuş və başlıca nəticələr çıxarılmışdır.

**Dissertasiyanın əsas məzmunu müəllifin nəşr olunmuş aşağıdakı əsərlərində öz əksini tapmışdır:**

1. Azərbaycan ilə Türkiyə arasında mədəniyyət sahəsində əməkdaşlıqda qardaşlaşmış şəhərlərin yeri (2003-2010) / Gənc alimlərin Elmi konfransının materialları. Bakı, Elmin inkişaf fondu, 2012, s.279-286.

2. Azərbaycanın Türkiyə ilə təhsil sahəsində əməkdaşlığının hüquqi - siyasi əsaslarında İlham Əliyevin rolu (2003-2010-cu illər) // ADPU-nun Xəbərləri. Bakı, 2012, № 4, s. 136-142.

3. Azərbaycan Respublikasının Türkiyə Cümhuriyyəti ilə turizm sahəsində əməkdaşlığı (2003-2010) // Gənc alimlərin əsərləri. Bakı, 2012, № 5, s. 243-255.

4. Azərbaycan Respublikası ilə Türkiyə Cümhuriyyəti arasında mədəni əlaqələrin inkişaf tarixindən (2007-2008) // ADPU-nun Xəbərləri. Bakı, 2011, № 1, s. 81-86.

5. Azərbaycan Respublikası ilə Türkiyə Cümhuriyyəti arasına turizm sahəsində əməkdaşlığın inkişafı (90-cı illərdən 2010-cu illərə) // Sivilizasiya. Bakı Avrasiya Universiteti. Bakı, 2015, №2, s.161-170.

6. Azərbaycanın Türkiyə ilə mədəniyyət sahəsində əməkdaşlığın inkişaf tarixindən (1991-2010) / AMEA Tarix İnstitutu və Azərbaycan Tarix Qurumu, Azərbaycan Respublikası Uğurlar və Perspektivləri. Beynəlxalq elmi konfransın materialları. Bakı, 2012, s. 212-221.

7. Azərbaycan Respublikası ilə Türkiyə Cümhuriyyəti arasında mədəniyyət sahəsində əməkdaşlıq (2003-2010) // Tarix və onun problemləri. Bakı, 2011, № 2, s. 115-123.

8. Azərbaycan və Türkiyə arasında orta təhsil sahəsində əməkdaşlığın inkişaf perspektivləri (2003-2010) // Sivilizasiya. Bakı Avrasiya Universiteti. Bakı, 2015, № 3, s.125-131.

9. Azərbaycan Respublikası ilə Türkiyə Cümhuriyyəyti arasında mədəni əlaqələrin dinamik inkişafı / “Müasir Elmin Aktual Problemləri” mövzusunda respublika elmi konfransının materialları. Lənkəran Dövlət Universiteti. Lənkəran, 2010, s. 173-175.

10. Azərbaycan Respublikası ilə Türkiyə Cümhuriyyəti arasında təhsil sahəsində əməkdaşlıq (2003-2010) / Lənkəran Dövlət Universiteti. Elmi konfransın materialları. Lənkəran, 2011, s. 119-122.

11. Azərbaycan Respublikası ilə Türkiyə Cümhuriyyəti arasında mədəniyyət sahəsində əməkdaşlıq (2003-2010). LDU beynəlxalq konfransın tezisləri. Lənkəran, 2011, s.75-77.

12. Azərbaycan və Türkiyə arasında orta təhsil sahəsində əməkdaşlığın inkişaf perspektləri (1991-2010). Doktorant və Gənc tədqiqatçıların XVII Respublika elmi konfransının materialları. Bakı, 2013, s. 184-186.

13. Azerbaycan ile Türkiye Arasında Öğrenci Değişimi Alanındaki İşbirliği (2003-2010 Yılları Arası) // Giresun Sosyal Bilmler Enstitüsü, SONBAHAR/ FALL 2013, yıl 5, № 9, s. 29-35.

14. Azerbaycan Cumhuriyyeti ile Türkiye Cumhuriyyeti arasında turizm alanında işbirliğinin hukuki temelleri (2002-2010)// Akademik tarih ve düşünce dergisi, Cilt 2, Sayı 5(2015), İstanbul 2015, s.177-188.

15. Роль Международной организации «ТЮРКСОЙ» в области сотрудничества между Азербайджаном и Турцией // Современные гуманитарные исследования № 1(44), Москва, 2012, с. 36-40.

16. Основные направления и динамика развития сотрудничества между предприятиями культуры Азербайджана и Турции // Исторические Науки. Москва, 2012, № 1 (49), с. 94-100.

17. Некоторые аспекты сотрудничества между Азербайджанской Республикой и Турцией в области образования // Полтавьский Національний педагогічний университет Імені В.Г.Короленка, Випуск 10, Полтава 2012, с. 182-186.

18. Литературные связи Азербайджанской Республики и Турецкой Республикой (2003-2010) // Абай атындагы Казак улттык педагогикалык университеті, Хабаршы Вестник, Алматы №(42), 2012 ж, с. 110-114.

**З.И.Мамедов**

## Культурные связи Азербайджанской Республики с Турецкой Республикой (2003-2010 гг.)

### Р Е З Ю М Е

Диссертационная работа состоит из введения, трёх глав, заключения и списка использованной литературы.

Во введении обоснована актуальность темы, проанализирована степень её изученности, дан анализ источников и историографии проблемы, определены цель и задачи, указаны научная новизна и практическое значение исследования.

Первая глава диссертации под названием “Развитие культурных связей между Азербайджаном и Турцией и их политико-правовые основы” состоит из двух параграфов. В данной главе исследована история развития сотрудничества в сфере культуры, науки и образования между двумя странами с анализом политико-правовых основ указанного исторического сотрудничества.

Во второй главе исследования, названной “Основные направления и развитие сотрудничества в сфере культуры” и состоящей из шести параграфов, исследованы такие вопросы как основные направления и формы сотрудничества между Азербайджаном и Турцией в сфере искусства, организация дней культуры и установление литературных связей и их значение, развитие сотрудничества в сфере туризма, место и роль городов-побратимов в сотрудничестве в сфере культуры, роль организации ТЮРКСОЙ в культурном сотрудничестве между двумя странами.

В третьей главе диссертации под названием “Динамика развития сотрудничества в сфере науки и образования” в широкой форме освещены проблемы перспектив развития сотрудничества между Азербайджаном и Турцией в сфере среднего образования, установления и развития сотрудничества между научными учреждениями и высшими учебными заведениями двух государств и вопросы студенческого обмена между ними.

В заключении диссертации подведены итоги исследования и обобщены основные результаты.

**Z.İ.Mammadov**

**Cultural relations Republic of Azerbaijan with Republic of Turkey (2003-2010)**

## SUMMARY

The urgency of the topic studied, the aims and duties of the dissertation have been defined, scientific innovation and practical importance of the research worle have been shown, the analysis of source study and history study of the problem have been given in the introduction.

The development and juridical-political basis of the cultural relations between Azerbaijan and Turkey have been analyzed, the development history of collaboration in the sphere of culture between two countries, the juridical-political bases of collaboration in the spheres of culture, education and science have been explained in the first chapter.

The second chapter named “The main directions and development of collaboration in the sphere of culture” consists of six paragraphs the main directions and forms of collaboration in the sphere of culture between Azerbaijan and Turkey are explained here, celebration of cultural measures, its importance and development of literary relations are analyzed.

Development of collaboration in the sphere of tourism between two countries, the place of twin cities in the collaboration of cultural sphere, the role of Turk generation in cultural collaboration of Azerbaijan-Turkey are broadly searched and analyzed.

The development dynamics of collaboration in the sphere of education and science between two countries is analyzed, the development perspectives of collaboration in the sphere of secondary education and establishment and development of collaboration among higher school and scientific institutions, collaboration matters in the sphere of student exchange are completely explained.

The conclusions of the research have been given, the main results have been generalized in the conclusion part of the dissertation.

**AMEA-nın mətbəəsində çap olunub**

**Tiraj-100**

**МИНИСТЕРСТВО ОБРАЗОВАНИЯ
АЗЕРБАЙДЖАНСКОЙ РЕСПУБЛИКИ
БАКИНСКИЙ ГОСУДАРСТВЕННЫЙ УНИВЕРСИТЕТ**

*На правах рукописи*

**ЗАУР ИБРАГИМХАЛИЛ оглу МАМЕДОВ**

# КУЛЬТУРНЫЕ СВЯЗИ АЗЕРБАЙДЖАНСКОЙ РЕСПУБЛИКИ С ТУРЕЦКОЙ РЕСПУБЛИКОЙ (2003-2010 гг.)

Специальность: 5503.02 – Отечественная история

**А В Т О Р Е Ф Е Р А Т**

диссертации на соискание ученой степени
доктора философии по истории

**БАКУ – 2015**